# Daşaltıda nəşinin qalıqları tapılan Nofəl Qurbanov torpağa tapşırılıb





Otuz bir il əvvəl Şuşada - Daşaltı uğrunda gedən döyüşlərdə şəhid olan Nofəl Qurbanov paytaxtın Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər xiyabanında torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, hökumət və ictimaiyyət nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələri, döyüş yoldaşları, media nümayəndələri iştirak ediblər.

Dəfn zamanı şəhidlərimizin ruhuna dualar oxunub və "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib.

Şəhid Nofəl Qurbanov əsgəri ənənələrə uyğun olaraq yaylım atəşi və Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında torpağa tapşırılıb.

Şəhidin nəşinin büküldüyü üçrəngli Azərbaycan bayrağı böyük qardaşı Namiq Qurbanova təqdim olunub.

Namiq Qurbanov jurnalistlərə müsahibəsində qardaşı Nofəllə bağlı xatirələrini bölüşüb: "Nofəl beş qardaşın ortancılı idi. Çox istiqanlı, mehriban, qorxmaz oğul idi. Onun iki dostu Qanlı Yanvar hadisələri zamanı şəhid oldu. Bundan sonra Nofəl yerə-göyə sığmırdı. Birinci Qarabağ müharibəsi başlayanda 1991-ci ildə könüllü olaraq döyüşlərə qatıldı. İyirmi yaşı yenicə tamam olmuşdu. Lakin daxilində yaşından böyük qəzəb, intiqam hissi var idi. Deyirdi, bizim analarımız, bacılarımız, körpələrimiz düşmənin hədəfinə çevrilib, mən burada qala bilmərəm. Yaşlı atamız belə onu yolundan döndərə bilmədi. Ona dedik ki, nə zaman çağırsalar, gedərsən. Lakin o, razılaşmadı. 1991-ci ilin dekabrında Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin azadlığı uğrunda döyüşlərə qatıldı. Onunla son görüşümüz 1992-ci il yanvarın ortalarında oldu. Həmin zamanlar evə gəlmişdi. Beş gündən sonra yenidən döyüş bölgəsinə qayıtdı və Daşaltı əməliyyatında iştirak etdi. Elə o zaman da itkin düşdü. Ona şəhid itkin statusu verilmişdi. Çox şükür ki, 31 ildən sonra Nofəlin nəşi bizə verildi və uzun illərdən sonra gözlərimiz yollardan çəkildi. Nofələ deyiləsi o qədər sözümüz var idi ki... Bu gündən sonra onun məzarının üstündə dərdləşə, təskinlik tapa biləcəyik".



Şəhidin döyüş yoldaşı Mübariz Səadətovun sözlərinə görə, Nofəl yaşca onlardan çox kiçik olduğuna görə ona kiçik qardaş deyirmişlər. Daşaltı əməliyyatından danışan M.Səadətov deyib: "Daşaltı əməliyyatına 1992-ci il yanvarın 26-sı axşam girdik. Döyüş istədiyimiz kimi yekunlaşmadı. Hərə müxtəlif istiqamətlərə səpələndiyindən döyüş yoldaşlarımızın bəzilərini tapa bilmədik. Onu bilirdik ki, döyüşə yollanan bir tağım, yəni 25 nəfər geriyə salamat qayıtmadı. Daşaltıda 110 nəfərə yaxın silahdaşımız itkin düşdü. Sağ qalanları isə Allahın möcüzəsi xilas etdi. Duman, qar olmasa idi, yəqin ki, oradan salamat çıxan olmayacaqdı. 31 il idi ki, itkinlərimizin yolunu gözləyirdik. Biz səngər qardaşımız Nofəli adına layiq şəkildə dəfn etdik. Arzu edirəm ki, digər itkin qardaşlarımızdan da xəbər gəlsin".

Qeyd edək ki, 1971-ci il dekabrın 3-də Bakıda anadan olan Nofəl Qurbanov 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatı zamanı şəhidlik zirvəsinə ucalıb.